LAWELS

İYUN AYINDA QANUNVERİCİLİYƏ EDİLƏN MÜHÜM DƏYİŞİKLİKLƏRİN XÜLASƏSİ

Cari buraxılış -IV, 01 iyul, 2020-ci il

LAWELS bloqunun Qanunvericilik yenilikləri buraxılışları Azərbaycan Respublikası qanunvericiliyinə edilən dəyişikliklər və digər yeniliklərin aylıq icmalı üzrə cari və xüsusi buraxılışları ehtiva edir.

1. "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi

Dəyişiklik Azərbaycan Respublikasında və ya Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan bir sıra konsul əməliyyatları üçün dövlət rüsumunun dərəcələrinin sosial-yönümlülük prinsiplərinə uyğun olaraq azaldılması məqsədini daşıyır. Belə ki, sözügedən əməliyyatlara görə ölkə daxilində tətbiq olunan bir sıra dövlət rüsumları ilə Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində həyata keçirilən həmin xidmətlər və hüquqi hərəkətlər üçün müəyyən edilmiş dövlət rüsumunun dərəcələri arasında kəskin fərqlər mövcud idi. Bu dəyişikliklə həmin kəskin fərqlərin bir çoxu aradan qaldırıldı.

Eyni zamanda dəyişikliklə ölkəyə qayıtmaq üçün pasportu əvəz edən qayıdış şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumunun tutulmaması hallarının əhatə dairəsi genişləndirilmişdir.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

2. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanununda dəyişiklik edildi

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 487-5.2-ci maddəsinə edilən dəyişiklik yəni, *hüquqi şəxsin yenidən təşkil edilməsinin və ya ləğv olunmasının qadağan edilməsi barədə məhkəmə qərarının dərhal müvafiq icra hakimiyyəti orqanına göndərilməsi* hüquqi şəxslər barəsində tətbiq oluna biləcək cinayət-hüquqi tədbirlərin səmərəliliyini təmin etmək məqsədi ilə həyata keçirilmişdir.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişiklik isə hüquqi şəxslərin dövlət qeydiyyatının və dövlət reyestrinin aparılmasının hüquqi və təşkilati əsaslarını təkmilləşdirmək məqsədi ilə həyata keçirilmişdir. Konkret olaraq bu Qanunun 12.8.1-ci maddəsinə edilən dəyişiklik hüquqi şəxslər barəsində bütün məlumatların, o cümlədən cinayət-hüquqi tədbirlər barədə məlumatların dövlət reyestrinə daxil edilməsini, 14.1.9-1-ci maddəsinə edilən dəyişiklik isə həmin maddənin mətninin aydın və birmənalı ifadə olunmasını nəzərdə tutulmuşdur.

Dəyişikliklə ətraflı olaraq burada tanış ola bilərsiniz.

3. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edildi

Miqrasiya Məcəlləsinə edilən dəyişikliyə əsasən, vizaların verilməsi aşağıdakı qaydada həyata keçiriləcək:

1. birdəfəlik və ya çoxdəfəlik elektron vizanın verilməsi ilə bağlı müraciət qəbul edildikdən sonra ən geci 3 iş günü müddətində;
2. birdəfəlik elektron vizanın sürətləndirilmiş qaydada alınması üçün müraciət edildikdə ən geci 3 saat ərzində;
3. birdəfəlik elektron vizanın Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında alınması üçün müraciət edildikdə isə real vaxt rejimində

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

4. Azərbaycan Respublikasının Vergi Məcəlləsində, “Qiymətləndirmə fəaliyyəti haqqında” və “İcra məmurları haqqında” Qanunlarında dəyişiklik edildi

Dəyişikliklər "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1440-VQD nömrəli Qanununun tətbiqi ilə bağlı hazırlanmışdır.

Belə ki, Vergi Məcəlləsi və "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunda qiymətləndirici ilə əlaqəli müvafiq tələb müəyyən etmişdir. Dəyişikliyə əsasən, “İcra məmuru **qiymətləndirmə sahəsində ixtisaslaşmış** və **5 ildən az olmayaraq** fəaliyyət göstərən, **ağır və ya xüsusilə ağır** cinayətlərə, habelə **korrupsiya cinayətləri** və **qulluq mənafeyi əleyhinə olan cinayətlərə** və ya **iqtisadi sahədə** olan cinayətlərə görə məhkum edilməyən qiymətləndiricini dəvət etməlidir."

"Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun 13-cü maddəsinin ikinci hissəsinə görə qiymətləndirmə keçirilməsi ilə bağlı xərclər, o cümlədən ekspertin əməyi qarşılıqlı razılaşma əsasında ödənilməlidir. Lakin göstərilən maddənin əksinə "İcra haqqında" Qanunun 51.3-cü və "İpoteka haqqında" Qanunun 38.2-ci maddələrində qiymətləndiricinin xidmətlərindən istifadə ilə bağlı xərclərin ipoteka saxlayan tərəfindən ödənilməsinə dair birbaşa göstərişlər vardır. Göstərilən uyğunsuzluğun aradan qaldırılması məqsədilə "Qiymətləndirmə fəaliyyəti haqqında" Qanunun müvafiq maddəsində dəyişiklik olunmuşdur.

"İcra haqqında" Qanunun 41.2-ci maddəsinə əsasən icra məmurlarının borclu hüquqi və fiziki şəxsin əmlakı, o cümlədən pul vəsaitləri və digər maddi sərvətləri barədə məlumatı Ədliyyə Nazirliyinin informasiya sistemi vasitəsilə əldə etmək hüququ müəyyən edilmişdir.

Dəyişikliklə ətraflı olaraq burada tanış ola bilərsiniz.

5. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edildi

İnzibati Xətalar Məcəlləsinə əlavə edilən 533-1-ci maddə dövlət dili normalarının kütləvi informasiya vasitələrində, internet informasiya ehtiyatlarında və reklam daşıyıcılarında pozulmasına görə inzibati məsuliyyəti nəzərdə tutur. Belə ki, dəyişikliyə əsasən kütləvi informasiya vasitələrində və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə-fiziki şəxslər yüz manatdan iki yüz manatadək məbləğdə, vəzifəli şəxslər üç yüz manatdan dörd yüz manatadək məbləğdə, hüquqi şəxslər beş yüz manatdan min manatadək məbləğdə cərimə ediləcək.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

6. "Mediasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi

Dəyişikliyə əsasən, "Mediasiya haqqında" qanunun iqtisadi mübahisələr, həmçinin ailə və əmək münasibətlərindən irəli gələn mübahisələr üzrə ilkin və sonrakı mediasiya sessiyasında iştirak ilə əlaqəli müddəaları 1 yanvar 2021-ci il tarixindən qüvvəyə minəcək.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

7. "Elektron məhkəmə" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edildi

Azərbaycan Respublikası Prezidentinin 1 iyun 2020-ci il tarixli Fərmanı ilə təsdiqlənən Əsasnamə "Elektron məhkəmə" informasiya sisteminin (bundan sonra – İnformasiya sistemi) formalaşdırılmasının, aparılmasının, digər qurumların informasiya sistemləri və ehtiyatları ilə Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə inteqrasiyasının, habelə informasiya sistemi ilə bağlı mühafizə tədbirlərinin təmin edilməsinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

Həmçinin Əsasnamədə İnformasiya sisteminin fəaliyyətinin prinsipləri, təhlükəsizlik tədbirləri, İnformasiya sistemi sahibinin, operatorunun, istifadəçilərinin və iştirakçılarının hüquqları və vəzifələri, İnformasiya sistemindən istifadə qaydası ilə bağlı müddəalar öz əksini tapmışdır.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

8. "Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin fəaliyyəti haqqında Əsasnamə" təsdiq edildi

Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin fəaliyyətinin effektiv formada təşkili və hesabatlılığının təmin edilməsi məqsədilə "Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların Azərbaycan tərəfinin fəaliyyəti haqqında Əsasnamə" təsdiq edilmişdir. Əsasnamədə Azərbaycan Respublikasının xarici ölkələrlə əməkdaşlığı üzrə birgə komissiyaların yaradılması, Komissiyanın Azərbaycan tərəfinin hüquqları, vəzifələri və Komissiyanın Azərbaycan tərəfinin fəaliyyətinin təşkili qaydaları ilə bağlı ümumi müddəalar öz əksini tapmışdır.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

9. "Məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi Qaydaları" təsdiq edildi

Nazirlər Kabinetinin 29 iyun 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş Qaydalar "Məhkəmə ekspertizası fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 11-5-ci maddəsinin ikinci hissəsinə əsasən hazırlanmışdır və məhkəmə ekspertizasının metodik fondunun yaradılması və istifadəsi qaydalarını müəyyən edir. Məhkəmə ekspertizasının metodik fondu məhkəmə ekspertizalarının elmi-metodik materiallarından ibarət məlumat bazasıdır. Bu Qaydaların məqsədi məhkəmə ekspertləri və digər şəxslər tərəfindən metodik fonddan istifadə edilməsini təmin etməkdən ibarətdir.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.

10. "Məhkəmə ekspertinin etik davranış kodeksi" təsdiq edildi

Nazirlər Kabinetinin 29 iyun 2020-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Məhkəmə ekspertinin etik davranış kodeksi" məhkəmə ekspertizası idarələrinin və özəl məhkəmə ekspertlərinin etik davranış qaydalarını, prinsiplərini, habelə onlara əməl edilməsi ilə bağlı münasibətləri müəyyən edir. "Məhkəmə ekspertinin etik davranış kodeksi" məhkəmə ekspertlərinin nüfuzunun artırılması, şəxslərin onlara etimadının yüksəldilməsi, habelə məhkəmə ekspertlərinin fəaliyyətində səmərəliliyin artırılması məqsədi daşıyır.

Həmçinin kodeksdə məhkəmə ekspertizası idarələrinin və özəl məhkəmə ekspertləri tərəfindən etik davranış qaydalarının pozulması nəticəsində müvafiq qanunlarda nəzərdə tutulmuş tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Ətraflı olaraq burada tanış ola bilərsiniz.